# Qüdrətli və etibarlı dövlət

Azərbaycanın strateji tərəfdaşı olan Pakistan hər il avqustun 14-də müstəqil dövlət yaradılması gününü təntənəli surətdə qeyd edir.

Pakistan İslam Respublikası inkişaf etməkdə olan sənaye-aqrar ölkəsidir. İqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. Ölkə əhalisinin yarısı kənd təsərrüfatı sahəsində çalışır.

Bütün məşğul olanların təqribən üçdə biri xidmət bölməsinin payına düşür. Ölkənin ümumi daxili məhsulunda onun payı 52,3 faiz təşkil edir. Ümumdünya bankı Pakistanı aşağı gəlirli ölkələr qrupuna aid edir.

Pakistanın ümummilli məhsulunun yarıya qədəri dövlətə məxsus müəssisələrdə yaradılır. Son on il onun həcmi bir neçə dəfə artmışdır. Son illərdə isə ümumdaxili məhsulun illik artımı 7 faiz təşkil etmişdir. Əhalinin adambaşına düşən gəliri 1.368 dollara çatmışdır. Əmək qabiliyyətli əhalinin sayı 57,24 milyon nəfərədək artmışdır.

Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 6,5 milyard dollar təşkil edir. Halbuki, bu göstərici 1999-cu ildə 300 milyon dollar səviyyəsində idi. İxrac məhsulları 9 milyard dollardan 17 milyard dollaradək artmışdır. İdxal isə 26 milyard dollar həddindədir.

Xarici investisiyaların ölkəyə cəlb olunması bir qədər yaxşılaşmışdır. Xüsusilə də birbaşa xarici investisiyalar 1,8 milyard dollaradək artmışdır. Xarici investisiyalar üçün əsas istiqamətlər maliyyə xidməti bölməsi və neft-qaz sahəsidir.

Pakistanın enerji balansında təbii qaz 48 faiz, neft 31 faiz, hidroenerji 12 faiz, daş kömür 7 faiz, atom enerjisi 1 faiz təşkil edir. Hazırda 7 neft yatağı istismara verilib, amma bunlar milli iqtisadiyyatın tələbatının 10 faizə qədərini ödəyir. Hər il 30 milyard kubmetr qaz hasil edilir.

Emaledici sənayenin daha çox inkişaf etmiş sahəsi toxuculuqdur. Cari büdcənin doldurulmasının başlıca qaynaqları idxal rüsumları və aksizlərdir. Büdcədə ən iri xərclər silahlı qüvvələrin ehtiyacları üçün ayrılır. Xarici kreditlərin və investisiyaların xeyli hissəsi energetikanın, su təsərrüfatının, nəqliyyat və rabitənin inkişaf etdirilməsinə yönəldilir.

Britaniyalı ekspertlərin rəyincə, Pakistan 2050-ci ildə iqtisadiyyatın həcminə görə dünyada 18-ci yeri tutacaq, onun ümumdaxili məhsulunun miqdarı isə 3,33 trilyon dollar təşkil edəcəkdir. Hazırda Pakistanın ümumdaxili məhsulu 225,14 milyard dollar olmaqla iqtisadiyyatının həcminə görə dünyada 44-cü yerdə durur.



Pakistanın xarici iqtisadi tərəfdaşları sırasında ilk yerləri BƏƏ, ÇXR, ABŞ və Səudiyyə Ərəbistanı Krallığı tutur. 2014-cü ilin yanvarından Pakistan tərəfindən ölkədə mülki hüquq və azadlıqlara əməl olunması müqabilində Avropa bazarlarında Pakistan mallarının idxalı üzərində güzəştli rüsum qoyuluşu tətbiq olunur.

Son zamanlar Pakistanın xarici siyasətində əsas prioritet istiqamətlər region ölkələrilə—Əfqanıstan, Hindistan, Çin, Türkiyə, İran və körfəz ölkələri ilə münasibətlərin möhkəmləndirilməsi təşkil edir. İslamabadın yeni strateji kursunda ilk növbədə məhz dövlətin öz təhlükəsizliyi xüsusi əhəmiyyət kəsb edir.

Ölkənin xarici siyasət kursunda dinc qonşuluq münasibətlərinin, yeni regional əlaqələrin daha da inkişaf etdirilməsinə və milli maraqların möhkəmləndirilməsinə ciddi fikir verilir.

Pekin ilə münasibətlər İslamabadın xarici siyasətinin məhək daşı olaraq qalır. Son illər ərzində bu ölkə ilə xalq təsərrüfatının müxtəlif sahələrində 20-dən artıq investisiya layihələri imzalanmışdır. Pakistan öz tərəfindən Çinin Tibet və Tayvandakı maraqlarını dəstəkləyir. Çin həmçinin Pakistan limanları vasitəsilə dünya bazarlarına çıxmaq üçün əlavə və qısa yol əldə etmiş olur.

Hindistan ilə münasibətlər mürəkkəb və təxirəsalınmaz problemlər siyahısındadır. Kəşmir problemi bu iki nüvə dövləti arasında, eyni zamanda beynəlxalq münasibətlər sistemində öz həllini gözləyən mühüm problem olaraq qalır.

Qonşu Əfqanıstanda daxili siyasi sabitliyin təmin olunmasına yönəldilmiş səylərin daha gücləndirilməsi Pakistanın bu ölkə ilə hərtərəfli əməkdaşlığının genişləndirilməsi üçün münbit şərait yaradır.

ABŞ ilə münasibətlər birmənalı xarakter daşımır. Bu, qismən regionda terrorizmə qarşı mübarizədə başlıca müttəfiq kimi İslamabada Vaşinqtonun marağının azalması ilə əlaqədardır.

Hazırda Türkiyə hərbi və ticarət sahəsində İslamabadın başlıca regional müttəfiqi kimi çıxış edir. Pakistan iqtisadiyyatının başlıca bölmələrində türk investisiyaları böyük həvəslə qarşılanır.

Pakistan Azərbaycanın müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkədir. Azərbaycan və Pakistan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemlərində bir-birlərini dəstəklədiklərini bəyan ediblər.

Bu iki dost və qardaş xalq çətin anlarda həmişə bir-birinin yanında olmuşlar. 2007-ci ildə Pakistanda baş vermiş zəlzələ zamanı Azərbaycan Pakistana böyük yardım göstərdi. Zəlzələdən dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycandan qırx həkim, xeyli dərman, avadanlıq və təlim keçmiş xilasedici dəstə bu bölgəyə göndərildi, Pakistana 1,5 milyon dollar həcmində maddi yardım edildi. Heydər Əliyev Fondu Pakistanın zəlzələdən dağılmış Müzəfferabad şəhərinin Rara qəsəbəsində müasir orta məktəb inşa etdi. 2008-ci ilin fevralın 9-da bu məktəb təntənəli surətdə şagirdlərin ixtiyarına verildi.

İki ölkə arasında siyasi əlaqələr yüksək səviyyədədir. Tərəflər beynəlxalq arenada həmişə birbirinə dəstək vermişlər. Təsadüfi deyil ki, Pakistan erməni silahlı birləşmələri tərəfindən törədilmiş Xocalı şəhərinin dinc əhalisinin soyqırımını qətiyyətlə pisləyən qətnamə qəbul etmiş və Xocalı şəhərindəki hadisələri soyqırım kimi tanımışdır.

Pakistan prezidenti Mamnun Hüseynin 2015-ci ilin martında Azərbaycana səfəri zamanı imzaladığı mühüm sənədlər arasında ən başlıcası strateji tərəfdaşlıq haqqında birgə bəyannamə oldu. Dövlət başçıları müasir hərbi texnologiyalara çatmaq, həmçinin Azərbaycanın potensialını modernizə etmək üçün tədqiqat, elmi və müdafiə texnologiyaları sahələrində birgə fəaliyyət üçün səylərin birləşdirilməsi haqqında razılığa gəlmişlər.

Müdafiə sənayesi sahəsində əhəmiyyətli irəliləyişlərə nail olmuş Pakistanın təcrübəsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Nüvə dövləti olan Pakistan hazırda döyüş təyyarələri, tanklar, hərbi gəmilər istehsal edir. Əlbəttə ki, bu sahədə əməkdaşlığı Azərbaycan investisiyaları hesabına genişləndirmək olar.

Pakistan dövlətinin böyük gələcəyi var.

**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun dosenti.**